

Qərib Mehdi

# Təzə ovçunun adı

(başlanğıcı ötən sayımızda)

***O, qana bulaşmış, qollarından olmuş şikəst gəlinciyi hiss olunmadan götürüb qoynunda gizlətdi. Sözsüz, bu gəlincik bomba zərbəsindən qeybə çəkilmiş günahsız bir qız uşağının oyuncağı idi.***

***Bəlkə də, babası icazəsiz hərəkətini bilsəydi, ona acığı tutardı. Burada yaralanmış hər bir daş, ağac parçası belə, az sonra təşkil ediləcək faciə məkanının eksponatına çev-riləcəkdi.***

***Müsahibə bitdi. Müxbir söz verdi ki, o qocadan aldığı müsahibəni olduğu kimi dünyaya yayımlayacaq.***

***Geri dönəndə Atıl qana bulaşmış şikəst gəlinciyi qoynundan ehtiyatla çıxarıb babasına göstərdi. Babası nəvəsinin hərəkətinə təəccüblənmədi, əksinə, qurbanın oxşarları yadına düşdü. Qayğılı halda nəvəsindən soruşdu:***

***– Hansı məqsədlə şikəst oyuncağı götürdün?***

***Atıl:***

***– Bilmirəm necə oldu götürdüm. Elə bildim, o gəlincik məni çağırır. Sahibinə qovuşmağa yardımçı axtarır.***

İsmayıl baba fikirli halda dilləndi:

– Daha bu mümkün deyil. Onun sahibi artıq Tanrının hüzurundadır. Yaralı gəlincik isə yerdə qalıb erməni vəhşiliyinə şahidlik edir. Sən onu muzeyə versən, yaxşı olar.

Atıl kədərlə babasının təklifinə qarşı durdu:

– Olarmı mən onu ömürlük özümdə saxlayım? Bəlkə, yaralarını sağalda bildimg

İsmayıl baba təəssüflə dilləndi:

– Türkün ağlı güclü, yaddaşı zəif olur. Bu yaralı oyuncağı özündə saxla. Ancaq onun qollarını geri qaytara bilməyəcəksən. Bu gəlin oyuncaq da sənin heykəl-əsərin olacaq. Praksitelin gözəllik İlahəsi Afroditanın heykəli kimi.

***Oxşarlığın qarşı tərəfi Atılı maraqlandırdı:***

***– O kimdir? O nə heykəldir elə? Bu qolsuz gəlinciyə baxıb nədən onları xatırladın?***

***İsmayıl baba:***

***– Praksitel qədim yunan heykəltaraşıdır. Bizim eradan əvvəl yaşayıb. Çoxlu heykəllər yonub. Onların arasında faciəvi taleyinə görə gözəllik ilahəsi Afroditanın heykəli daha çox seçilir. O heyranedici heykəl də hansı səbəbdənsə qollarından olub. Bütün əzaları yerindədir, qollarından başqa. Pis niyyətli adamlar, paxıllar Allaha da qıyırlar.***

Atıl:

– Ermənilər kimi?

İsmayıl baba:

– Həg Biz Şuşadan didərgin düşəndə mənəvi sərvətimiz kimi Natəvanın, Üzeyir bəyin, Bülbülün heykəllərini də özümüzlə götürməyə məcbur olduq. Onlar dünya şöhrətli sənətçilərin heykəllərini də güllələmişdilər. Heykəllər orada qalsaydı, tamam yerlə-yeksan ediləcək, ilahə Afroditadan pis günə salacaqdılar. İndi sənin öz qolsuz Afroditan var. O sənin zaman-zaman yaddaşını təzələyəcək, ermənilərin yaxşılarını (az da olsa) yamanlarından seçməyə kömək edəcək.

Ermənilər Atılgili haradan qaçqın-köçkün salmışdılar? Göyçədən, Borçalıdan, İrəvandan, Zəngəzurdan, Dəmir Qapı Dərbənddən, yoxsa Arazın o tayından? Vacib saydığı bu məsələ gündən-günə böyüyən, dünyagörüşü artan Atılı çox düşündürürdü. Bunu nənəsindən də soruşmuşdu, babasından da. Nənəsi yalnız bir məkanın adını çəkirdi. Onu da əlavə edib deyirdi ki, «ayağım doğma yurda dəyəndə xəstəliyim yoxa çıxacaq, sağalacağam». Babası isə onun sorğusuna yayğın cavab verirdi – gah bu məkanın, gah da başqa məkanın adını çəkirdi. Atıl bilirdi ki, babasının hələlik ona açılmayan bir sirri var. O, əmin idi ki, tarix müəllimi boşuna söz demir.

Atıla isə dəqiqlik lazımdı. O, bugün-sabah məktəbə gedəcəkdi. İrəlidə onu ali məktəb, hansı bir idarədəsə vəzifə borcu gözləyirdi. Şəcərəsini mükəmməl bilməliydi. Tərcümeyi-halını yazıb kadr anketi dolduracaqdı. Kimliyinə indidən bələd olmalıydı. Bir gün babasına dirəniş göstərdi:

– Deyirsən, biz tezliklə qaçqın-köçkün düşdüyümüz yurda qayıdacağıq. Haradır bizim doğma yurdumuz, biz hansı şəhərin, hansı kəndin, hansı bölgənin adamlarıyıq?

Tarix müəllimi olmuş babası, nəhayət, onun gözlədiyi sirri açıb tarixçi kimi cavab verdi:

– Şübhəsiz, sən tərcümeyi-halında dünyaya gözünü açdığın yerin adını yazmalısan. Ancaq bu anketin sorğusuna tam cavab deyil. İnanmalısan ki, sən həm Şuşada, həm Xocalıda, həm Ağdamda, həm Xankəndində, həm İrəvanda, həm Təbrizdəg – itirilmiş torpaqlarımızın hamısında doğulubsan.

***Şimallı-Cənublu Azərbaycan türkü qədimdən harada yaşayıbsa, ora bizim vətənimizdir. Bunu qiymətli bir saxlanc kimi yaddaşımızda möhkəm saxlasaq, halal torpağımızın, Vətənimizin gələcəyindən nigaranlıq çəkmərik. Baban İsmayıl müəllimi demirəm ey, Şah baban İsmayılın sahib olduğu, qurduğu, bizə müqəddəs əmanət kimi qoyub getdiyi məmləkət haradırsa, biz orada doğulmuşuq. Əsil vətəndaşlıq budur!***

Babasının cavabı dərin düşüncələrə daldırdı Atılı. Ona elə gəldi ki, babası Atıl pəhləvanın qarşısına ağır bir daş qoydu. O, bu ağır daşı qaldırmaq zorunda olduğunu dərk etməyə başladı. Vətəni olana «Vətəndaş», olmayana «sakin» deyirlər. Atıl duydu ki, vətəndaş olmağın şərti o ağır daşı qaldırmaqdan keçir.

Atıl üçün qanad gətirən bu xoş arzuların tam dərk olunmasına zaman lazım idi. Bunu İsmayıl baba yaxşı başa düşürdü. Ömürdən başqa hər şeyə zəmanət vermək olar. Baba dəyməmiş meyvəni süfrəyə düzməyə məcburdu. Sabah gec olardı. Deyəcəklərini vaxt var ikən demədiyi üçün peşimanlıq köməyinə çatmazdı. Gələcəyi qarşılamaq üçün Atılın daxilində tədrici hazırlıq gedirdi. Bununla belə, o, hələ uşaq idi. Fikri daha çox heyvanlar aləmindən çəkilən filmlərdə, bir də Gülpəri nənəsinin söylədiyi Ovçu Pirimdə idi. Səbirsizliklə ikisinin də yolunu gözləyirdi.

Almaniya faşistlərinin yolunu gedən erməni faşistləri dinc əhaliyə uzaqmənzilli raketlərlə divan tutsalar da, ön cəbhədə – mərdanə döyüşdə uduzurdular. Azərbaycan əsgərinin başarılı zərbələrindən başlarını itirmiş düşmənlər səngərlərini tərk edib qaçırdılar. Elə qaçırdılar ki, heç tazı da dallarına çatmazdı. Üstünlüyümüzlə keçən döyüş səhnələri tez-tez televizorda göstərilirdi. Hamı qələbə xəbərli mənzərələri izləmək üçün televizora diqqət kəsilmişdi. İşğaldan azad olunmuş torpaqlarımızın sahəsi günü-gündən genişlənirdi. Ən şahanə xoş xəbər Şuşanın azad olunması xəbəri idi. Hələ Azərbaycanın belə bayraqlı günü olmamışdı. Hər yan bayraq gətirmişdi. Şuşanın erməni terrorçulardan təmizlənməsi bir gün sonra – noyabrın 9-da keçiriləcək qələbəliyə - Bayraq Gününə ən möhtəşəm hədiyyə idi.

Ekranda daha sevincli bir səhnə! Hansı alayın komandirisə qələbə münasibətilə döyüşdə fərqlənən, qəhrəmanlıq göstərən əsgərlərinin sıra ilə əlini sıxıb təbrik edirdi. Növbə sifətindən mərdlik yağan, tanış simalı məğrur bir əsgərə çatdı. Kimdir bu əsgər? Bir anlıq çaşqınlıq evdəkiləri yerlərində dondurdu. An keçdi, çaşqınlıq donu açıldı. Hamıdan əvvəl Atıl sevincdən qıyya çəkib atılıb-düşməyə başladı:

***– Atamdır!!! Baxın, komandiri onu təbrik edir!***

***Nənə ilə gəlin bir-birinə sarıldı:***

***– Atıl düz deyir! Qələbə münasibətilə təbrik olunan Beyrəkdir!***

***İsmayıl babanın məğrur, lakin sakit səsi eşidildi:***

***– Beyrəkdir! Mənim oğlum – sənin atan belə olmalıdır! İndi o, təkcə bu ailənin yox, həm də Vətənin övladıdır. Qələbən mübarək!..***

Gecənin bir vədəsində İsmayıl baba yuxusundan ayıldı. Xoş xəbərin sevinci gözünə yuxu enməyinə mane olurdu. Ətrafına boylandı. Gördü Atıl da yatağında oturaqlı haldadır. Yatmalı ikən, yata bilmir. Əlində partlayış yerindən götürdüyü qollarından olmuş gəlinciyə – «Afrodita»ya baxır. Bəlkə də, baxmır, onunla danışırdı. Deyəsən, çətinə düşmüşdü. Azərbaycan mənşəli «Afrodita»nın suallarına cavab tapa bilmirdi. Babası nəvəsini başa düşürdü. İstəyirdi, səbəbi özü söyləsin. Meyvə sulananda uşaq suallananda tez yetişir. Qayğılı baba dilləndi:

– Niyə yatmırsan?

Atıl niyə yatmadığını babasına açıqladı:

– Sıxıntılı yuxu gördüm. Gördüm ki, yaralı gəlincik məndən qollarını istəyir. Mən də onun istəyi qarşısında aciz qalmışam. Tər içində ayıldım. Daha yata bilmədim.

O biri otaqdan Gülpəri nənənin səsi gəldi. Sən demə, yatmayıbmış, baba ilə nəvənin ürək yaxan söhbətinə qulaq asırmış:

– Ürəyini çox sıxma, Atıl balam. Onun sahibinə qıyanı, özünü qollarından eləyəni Allaha tapşırmışam. Özü ədalət divanı quracaq.

Atıl yatağın içində vurnuxdu. Və birdən nənənin haqqında tez-tez söz açdığı xilaskar – Ovçu Pirim yadına düşdü:

– Nənə, hanı sənin Ovçu Pirimin? Onun borcu yalnız günahsız heyvanlarımı yırtıcı heyvanlardan qorumaqlır?

Bu sualın cavabını daha dolğun, daha inandırıcı İsmayıl baba verə bilərdi. Hərənin öz vəzifəsi vardı. Nağıllar, əhvalatlar nənənin öhdəsində idi. Gerçəyi isə İsmayıl baba söyləyirdi. Atıl tarixçi babasına inanırdı. Nəyin necə olacağını qabaqcadan bilirdi. Sanki Allahın yerdəki kölgəsi idi.

***İsmayıl baba:***

***– Ovçu Pirim dinc ev heyvanlarını vəhşi tülkülərdən, çaqqallardan, ayılardan qoruyurdu. Torpaqlarımıza daraşan, günahsız insanların qanını tökən, yurdundan-yuvasından didərgin salan ermənilər isə quduz, yırtıcı heyvanlardan daha betərdir. Onları yerində oturtmaq üçün təzə ovçu ayaqdadır. Bu ovçu hər gün zəfərlər qazanmaqdadır. Bu ovçu tezliklə sənin qollarından olmuş «Afrodita»nın da intiqamını alacaq! Televizorda heyvanlar aləminə də rahatca baxacaqsan!***

***Atılın sevincdən ürəyi atlandı:***

***– Xilaskar təzə ovçunun adı nədir, baba?***

***İsmayıl baba qürurla səsləndi:***

***– Azərbaycan əsgəri!***



**Atıl üçün qanad gətirən bu xoş arzuların tam dərk olunmasına zaman lazım idi. Bunu İsmayıl baba yaxşı başa düşürdü. Ömürdən başqa hər şeyə zəmanət vermək olar. Baba dəyməmiş meyvəni süfrəyə düzməyə məcburdu. Sabah gec olardı. Deyəcəklərini vaxt var ikən demədiyi üçün peşimanlıq köməyinə çatmazdı. Gələcəyi qarşılamaq üçün Atılın daxilində tədrici hazırlıq gedirdi. Bununla belə, o, hələ uşaq idi. Fikri daha çox heyvanlar aləmindən çəkilən filmlərdə, bir də Gülpəri nənəsinin söylədiyi Ovçu Pirimdə idi. Səbirsizliklə ikisinin də yolunu gözləyirdi**